# Sülhə nail olmaq üçün ölkələr bir-birinin ərazi bütövlüyünü tanımalıdırlar



***Dövlət başçımızın həm ölkədaxili, həm də xaricə istənilən səfəri Azərbaycanın gələcəyi ilə bağlı mühüm bəyanatların səsləndirilməsi, proqnozların dilə gətirilməsi və ya perspektivdəki planların ilk müjdəsinin verilməsi baxımından əhəmiyyətli olur və yadda qalır. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın fevralın 13-də Ağdama və Ağcabədiyə səfərləri də bir neçə cəhətdən əlamətdar oldu.***

**(ardı 2-ci səhifədə)**

# Sülhə nail olmaq üçün ölkələr bir-birinin ərazi bütövlüyünü tanımalıdırlar



*(əvvəli 1-ci səhifədə)*

Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində görülən bərpa-restavrasiya işlərinin gedişatı ilə tanışlıq zamanı Ali Baş Komandanımız həm ermənilərə, həm də onların himayədarlarına xatırlatdı ki, biz sülh istəyirik, sülh müqaviləsinin hazırlanmasına tərəfdarıq, amma bütün bunlar Azərbaycanın ərazi bütövlüyünün tam bərpası və işğalçı ölkənin bizim ərazi bütövlüyümüzü tanımasından sonra mümkündür: “Biz öz torpağımızdayıq. Biz bu torpağa qan tökərək, şəhidlər verərək qayıtmışıq. Bu torpaqda möhkəm dayanmışıq və bu torpaqlarda əbədi yaşayacağıq”.

Yəni ermənilər sülh, sabitlik, əmin-amanlıq və inkişaf istəyirlərsə, onda Azərbaycanın ərazi bütövlüyünü tanımalıdırlar. Əks-təqdirdə onlar üçün sülh də olmayacaq, sabitlik də, əmin-amanlıq da. Üstəlik, iqtisadi böhrandan heç zaman xilas ola bilməyəcəklər. Biz həm Birinci, həm də İkinci Qarabağ müharibələrində şəhid olmuş, itkin düşmüş, ömürlük əlilə çevrilmiş soydaşlarımızın qanının yerdə qalmaması üçün bütöv və qüdrətli Azərbaycan dövləti yaratmalıyıq və yaradırıq. Əgər kimsə bu prosesə mane olmaq istəsə, onda başı üstündə “dəmir yumruğu” görəcək.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev bu il yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsi zamanı jurnalistin Ermənistanın zaman-zaman törətdiyi təxribatlar, baş verən ciddi toqquşmaların bir daha baş verməməsi üçün Azərbaycanın hansı rıçaqlardan istifadə edəcəyi və delimitasiya, demarkasiya ilə bağlı bu il hansı tədbirlərin görüləcəyi ilə bağlı sualına cavabında demişdi ki, bizim istər müharibə, istər keçmiş Qarabağ münaqişəsinin həlli, istərsə də gələcəklə bağlı siyasətimiz tam aydındır. “Biz təklif etmişik ki, hər iki ölkə bir-birinin ərazi bütövlüyünü tanısın, sərhədlərin delimitasiyası ilə bağlı işlərə start verilsin, kommunikasiyaların açılması prosesinə start verilsin və sülh müqaviləsi imzalansın. Yəni, sülh müqaviləsinin imzalanması 100 faiz qarantiya olmasa da, hər halda, müharibə riskini böyük dərəcədə minimuma endirir. Halbuki, biz onu da bilməliyik ki, istənilən sülh müqaviləsi Ermənistan üçün, sadəcə, kağız parçası ola bilər”.

Prezident tamamilə haqlıdır və bu fikirləri dilə gətirəndə geridə qalmış otuz ilin təcrübəsinə əsaslanır. Belə ki, Ermənistan və onların havadarları BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri başda olmaqla bir çox mühüm sənədləri on illər boyu qulaqardına vurmuş və adi bir kağız parçası sanmışdılar. Amma indiki Ermənistan o qədər də həyasızlıq edə bilmək iqtidarında deyil. İndiki Ermənistanın ordusu məhv edilmiş, iqtisadiyyatı çökdürülmüş, yalanları ifşa olunmuş, mifləri zibil qabına atılmış, “müstəqilliyi ölüm ayağında olan”, heç bir hikkəsi irəli gedə bilməyən dövlətdir. İndi Azərbaycan öz haqqını ən yüksək səviyyədə qoruyur, ədaləti, obyektivliyi tələb edir və regionda söz sahibi olduğunu dönə-dönə təsdiqləyir.

Dövlət başçımız Ağdamda həyata keçirilən tədbirlər barədə danışarkən dedi ki, biz tarixi zəfərdən sonra vaxt itirmədən bu işlərə start vermişik, siyasi iradə ortaya qoymuşuq, bütün maliyyə və texniki imkanlarımızı, kadr potensialımızı səfərbər etmişik: “Bütün bu işləri biz özümüz görürük, öz vəsaitimiz hesabına, büdcəmiz hesabına, heç kimdən yardım istəmədən, heç bir kredit almadan. Bunu Azərbaycan vətəndaşları edir. Əlbəttə ki, müxtəlif xarici şirkətlər artıq bu işlərdə fəal iştirak edirlər. Bu şirkətlərin sayı artmaqdadır. Mən çox şadam ki, həm yerli şirkətlər, həm xarici şirkətlər azad edilmiş torpaqlarda işləməyə can atırlar, maraq göstərirlər və biz bunu alqışlayırıq”.

Gəlin, indi də 44 günlük müharibədən sonra işğalçı ölkədə baş verən proseslərə nəzər salaq. İndi Ermənistanda ölkədən qaçıb getmək istəməyən adamları barmaqla saymaq olar. Bu ölkəyə nəinki sərmayə yatırmaq, heç yardım eymək istəyən də qalmayıb. 2020-ci ilin payızına qədər İrəvana “Qorxma, qorxma!” – deyənlərin “dili tutulub”. Həmin tarixə qədər “Daha çox ərazilər ələ keçirmək üçün daha çox müharibə etmək” – çağırışı edənlər indi daha çox ərazi itirməmək üçün sərhədlərin delimitasiya və demarkasiyasına başlamaqdan qorxurlar. Ermənistanda yaxşı bilirlər ki, Prezident İlham Əliyevin dilə gətirdiyi bütün bəyanatlar reallaşdırılır. Çünki onun dediklərinin hamısı həqiqəti əks etdirir və beynəlxalq hüququn təməl prinsipləri ilə uzlaşır. Ona görə də işğalçı ölkənin bütün rəsmiləri sərhədlərin delimitasiya və demarkasiyası sözlərini eşidəndə səksənirlər. Biz isə haqqa, ədalətə, obyektivliyə, beynəlxalq təcrübəyə əsaslandığımıza görə bu proseslərin tezləşdirilməsini tələb edirik.

Ancaq Azərbaycan təkcə sərhədlərin müəyyənləşdirilməsi və ya sülh müqaviləsinin hazırlanmasına tələsmir. Dövlətimiz vandal düşmənin viranə qoyduğu ərazilərmizin bərpasına və tamamilə yenidən qurulmasına böyük vaxt, səy və maddi vəsait sərf edir. Prezident Ağdamda olarkən dedi: “Qarşımızda böyük işlər vardır. Bu işləri maksimum səmərə ilə və keyfiyyətlə aparmaq üçün, əlbəttə ki, düşünülmüş addımlar planı olmalıdır. Bütün şəhərlər baş plan əsasında yenidən qurulacaq. Ağdamın, Füzulinin baş planları təsdiq edilib. Ağdam və Füzuli rayonlarının ictimaiyyəti bu baş planlarla tanış olub və öz müsbət rəyini verib. Hazırda yerli və xarici şirkətlər tərəfindən digər şəhərlərin baş planları işlənilir. Onlar hazır olan kimi biz artıq praktiki işlərə başlayacağıq”.

Bu qeydlərimizi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ötən il iyunun 26-da Silahlı Qüvvələr Günü münasibətilə “Gülüstan” sarayında Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşündə söylədiyi fikirlərlə tamamlamaq istəyirik. Dövlət başçımız orada demişdi ki, Dağlıq Qarabağ münaqişəsi həll olunub: “Ermənistan da bunu belə qəbul etməlidir və bizimlə sərhədlərin müəyyən edilməsi istiqamətində iş aparmalıdır. Delimitasiya üzrə işçi qrup yaradılmalıdır. Sülh müqaviləsinə hazırlıq işləri getməlidir. Biz bunu bəyan edirik. Biz qalib ölkəyik... Ona görə Ermənistan tam dərk etməlidir ki, biz istənilən hərbi vəzifəni icra edə bilərik və heç kim bizi dayandıra bilməz. Onlar bilməlidirlər ki, “dəmir yumruq” yerindədir”.

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***